# Müstəqilliyimizin bərpası günü

Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılar hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycan müstəqilliyini dünyaya bəyan edib, xalqımızın çoxəsrlik dövlətçilik ənənələri davam edib. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılıb, dövlət atributları təsis olunub, sərhədləri müəyyən edilib, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılıb. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratiyanın təsbit edilməsində əsaslı rol oynayıb.

1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olunub. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal bəyannaməsinə və “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunub, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib. Beləliklə, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktına əsasən, Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa edib”- deyə, parlamentə daxil olan sənəddə qeyd edilib. Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və başqa dövlətlər tanıdı. 2 mart 1992-ci ildə Azərbaycan müstəqil dövlət kimi BMT-yə üzv qəbul edildi. Müstəqilliyi bərpa etdikdən qısa müddət sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin artan təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyindəki səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, vətəndaş qarşıdurması müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini yaradırdı. Əslində müstəqilliyin elan olunmasından daha vacib olan müstəqilliyin qorunması idi.

Artıq verilən qərara əsasən 18 oktyabr tarixi Müstəqilliyin bərpası günü kimi, 28 may tarixi isə Müstəqillik günü kimi qeyd olunur.

2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 31 ili tamam oldu.

Azərbaycan xalqı 1991-ci ildən sonra artıq iki ildir ki, bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir.

# 44 günün nəticəsi

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.

Azərbaycan və Ermənistan arasında 27 sentyabrda başlayan müharibə 44 gün davam edib və bu müddət ərzində üç dəfə humanitar atəşkəs elan edilib. Lakin atəşkəs hər dəfə pozulub.

Həm Azərbaycan, həm Ermənistan cəbhədə hərbi əməliyyatların başlamasını elan edib. Azərbaycanda qismən, Ermənistanda isə səfərbərlik elan olunub.

Sentyabrın 27-də əks-həmlə ilə başlanan və Vətən müharibəsi kimi xarakterizə edilən İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu elə bir zəfər salnaməsi yazdı ki, bu barədə xarici ölkələrin qərargahlarında, hərbi təhsil və hərbi-tədqiqat müəssisələrində, hərb tarixi dərsliklərində indidən belə çox yazılacaq, tədqiqatlar aparılacaq.

Bu müddət ərzində düşmənə sarsıdıcı zərbə vurmaqla yerdə və havada üstünlük qazanan Silahlı Qüvvələrimiz "məğlubedilməz erməni ordusu" mifini dağıtdı və Ermənistan hakimiyyətini 44 gün ərzində 3 dəfə atəşkəs dilənməyə və nəhayət, təslim olmağa vadar etdi. İkinci Qarabağ müharibəsi aşağıdakı nəticələrlə tamamlanıb:

-İşğal altında olan ərazilərimizin bir hissəsi hərbi yolla, digər hissəsini isə Ermənistan üçün kapitulyasiya aktı kimi dəyərləndirilən 10 noyabr Bəyanatından irəli gələn öhdəlik əsasında azad edilir. Dekabrın 1-də Azərbaycanın bütün ərazisi üzərində siyasi-hüquqi suverenliyimiz və ərazi bütövlüyümüz bərpa ediləcək. Beləliklə, Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş ərazi bütövlüyü təmin ediləcək.

- 10 noyabr Bəyannaməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq, dövlətlərarası xarakterini bir daha təsdiqləmiş oldu. Ermənilərin onu 1988-1991-ci illərdə SSRİ-nin tərkibində olduğu kimi daxili münaqişə formasında saxlamaq cəhdləri birdəfəlik aradan qalxdı. Dağlıq Qarabağın statusu məsələsi danışıqların predmetindən çıxmış oldu, orada yaşayan ermənilərə öz müqəddəratını təyinetmə prinsipinin heç daxili aspekti də şamil edilməyəcək. Onlar adi Azərbaycan vətəndaşına verilən hüquqlardan yararlanmalı olacaqlar.

-Azərbaycan BMT TŞ-nin 4 qətnaməsini təkbaşına icra etdi və bu istiqamətdə BMT Nizamnaməsinin 51-ci maddəsini əldə rəhbər tutaraq fərdi qaydada həmin qətnamələrin tələblərini yerinə yetirmiş oldu. BMT TŞ-də 10 noyabr Bəyanatının müddəalarına uyğun yeni qətnamə qəbul edilməli və onun bazasında ATƏT-in Minsk qrupu yeni sülh müqaviləsi hazırlamalıdır. Bundan əlavə, Azərbaycanın öz daxili qanunvericiliyində bir sıra dəyişikliklər olmalıdır. Bu, xüsusən də konseptual sənədlərimizlə (Milli Təhlükəsizlik Konsepsiyası, Hərbi Doktrina və s.) daha sıx bağlıdır.

- İran İslam Respublikası ilə dövlət sərhədimizin 132 km-lik hissəsi işğaldan azad edilib və orada sərhəd zastavaları qurulub. Uzun müddət həmin istiqamətdə transmilli cinayətkarlığın bəzi təzahürləri geniş inkişaf etmiş və kriminal işbirliyi formasında həyata keçirilmişdir. Artıq həmin ərazilər öz həqiqi sahibinin nəzarətindədir.

- Dəhlizlərin mübadiləsi ideyası gerçəkləşir. Bu, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan, Ermənistanla Xankəndi arasında birbaşa quru yolunun olması deməkdir. Ermənistana yalnız Laçın dəhlizi vasitəsilə və qarşıdan gələn 3 il ərzində o istiqamət üzrə inşası nəzərdə tutulan yolla Azərbaycana daxil olmağa icazə verildiyi halda, Azərbaycana isə həm Laçın, həm də ölkəmizin digər qərb rayonları vasitəsilə Naxçıvana çıxış imkanı verilir. Şübhəsiz, Azərbaycandan Naxçıvana, oradan isə Türkiyəyə çıxış, əks-istiqamətdə isə Türkiyədən Cənubi Qafqaz, Orta Asiya və Çin Xalq Respublikasına kimi nəhəng türk zolağı uzanacaq. Bu ideyanın müəllifi Pol Qobl 1992-ci ilin iyununda hazırladığı sülh planına belə bir müddəa daxil etmişdir. Strateji əhəmiyyətə malik olan bu plana 1992-ci ilin yayında (o zaman Azərbaycan Şuşanı və Laçını itirmişdi) Azərbaycan, Ermənistan, İran, hətta Rusiya mənfi münasibət bildirmişdir.

- İşğaldan azad edilmiş ərazilər qeyri-qanuni iqtisadi fəaliyyətlərdən, cinayətkar qruplaşmalardan (terrorçulara orda təlim düşərgələrinin salınması, narkotiklərin becərilməsi və trafiki, Rusiyadan 1992-1996-cı illərdə qanunsuz yolla gətirilmiş 1 milyard dollar dəyərində silahların işğal altında olan ərazilərdə gizlədilməsi və s.) və məskunlaşmalardan (Suriya, Livan və s. Yaxın Şərq ölkələrindən erməni və kürd ailələrini burada yerləşdirməklə həmin əraziləri erməniləşdirmək və kürdləşdirmək) azad edilərək Azərbaycana qaytarılır. Həmin ərazilərin təbii ehtiyatlarının istismarından, yaxın gələcəkdə isə azad edilmiş ərazilərimizin rekreasiya potensialından ölkəmizin və xalqımızın rifahı üçün istifadə ediləcək və Ermənistan son 27 il ərzində ölkəmizə vurduğu ziyanı ödəməli olacaq. Ermənistanın keçmiş baş prokuroru, Ermənistanı Avropa İnsan Hüquqları Məhkəməsində təmsil etmiş Gevork Kostanyan deyib ki, "biz bu razılaşma ilə təkcə əraziləri vermədik, eyni zamanda, Ermənistanın üzərinə 50 milyard dollarlıq öhdəlik qoyulur, bu pulları biz və gələcək nəsillərimiz Azərbaycana ödəməli olacaq''. Hazırda bu istiqamətdə Azərbaycanda ciddi işlər görülür. Prezident İlham Əliyevin noyabrın 6-da imzaladığı, "Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında'' Sərəncama uyğun olaraq Dövlət Komissiyası və müxtəlif regionlar üzrə 9 işçi qrupu yaradılıb. Həmin qruplar artıq yerlərdə işə başlayıb. Təzminatın məbləğinin artacağı istisna edilmir.

-44 günlük müharibə Azərbaycan xalqının qürurunu, mənliyini və şərəfini özünə qaytardı. Xalqımızın və ordumuzun milli vətənpərvərlik ruhu və mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir. Müasir döyüş sirlərinə dərindən bələd olan, döyüş meydanında intizamlı savaş aparan, beynəlxalq qaydaları əldə rəhbər tutan qalib bir Azərbaycan Ordusu haqqında stereotip formalaşmaqdadır. Apardığı peşəkar əməliyyatlarla dünya qərargahlarını şoka salan müzəffər Azərbaycan Ordusunun beynəlxalq reytinqdə irəliləyəcəyi heç şübhə doğurmur. Bu uğur beynəlxalq miqyasda bundan sonra aparılacaq sülhə məcburetmə əməliyyatlarında Azərbaycan Ordusunun potensialından və təcrübəsindən geniş yararlanmağa imkan verəcək. Artıq Ermənistanın bir dövlət kimi gələcək mövcudluğu diasporaya deyil, məhz Azərbaycana göstərəcəyi hörmət və səmimiyyətdən asılı olacaq.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.

Yenilməz Azərbaycan Ordusunun erməni işğalına qarşı haqq savaşı 10 noyabr tarixindən başa çatdı. Bu savaş Vətən müharibəsi adlanır və tarixə belə də yazılacaq. Müharibə ərəfəsində müxalifətli-iqtidarlı hamı müzəffər ordumuza dəstək oldu, arxa cəbhədə olanlar da ön cəbhə üçün çalışırdılar. Müharibə sona çatdı və hər iki tərəfdən ölən və yaralılar var. Haqq savaşında bu təbiidir. Əsas məsələ odur ki, haqlı və haqsız vardır. Dünya yaxşı bilir ki, biz haqq sahibiyik. Çünki işğal olunmuş torpaqlar bizim ata-baba torpaqlarımızdır. Biz torpaqlarımızı erməni vandallarından təmizləyirik. Qüvvətli və yenilməz ordumuz, igid əsgərlərimiz onlara cəbhədə layiqli dərsi verdi.

Bu gün biz də Azərbaycanımızın bir zərrəsi, bir damlasıyıq! Vətəndə hava soyuduqda biz də üşüyürük, acısına ağlayırıq, sevincinə sevinir, qürurlanırıq. Həyatın rüzgarları bizim istəyimizdən asılı olmayaraq bizi dünyanın müxtəlif yerlərinə səpələmişdir. Bir terror dövlətinin dünya qarşısında acizliyini, alçaldığını görmək bizə sülhsevər bir xalqın nümayəndəsi kimi əvəzedilməz sevinc hissi bəxş etdi.

Əlbəttə şəhidlərimiz də vardır, onların qanı bahasına işğaldan azad olundu torpaqlarımız. Amma şad qələbə xəbərləri şəhidlərimizin də ruhunu oxşayır. Şəhidlərimizin qanı yerdə qalmadı. Onlar bilsinlər ki, qorxmaz və iradəli, mətin davamçıları vardır. Allah şəhidlərimizə rəhmət eləsin!

**İlahə RƏHİMOVA,**
**“Qəbələ”**